# Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Daniel və sirli yuxu




Müəllif: Edward Hughes
İllüstrasiya edən: Jonathan Hay
Tərcümə edən: Günay Əsədova
Uyğunlaşdıran: Mary-Anne S.



60 Hekayənin 32 -cisi

**www.M1914.org**

***Bible for Children,*** *PO Box 3, Winnipeg, MB R3C 2G1 Canada*



Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


Azərbaycan

Azerbaijan

Padşah Navuxodonosor yuxu gördü və bu yuxu onu çox narahat etdi. Allahın qüdrəti ilə Daniel padşahın yuxusunun yozmasını ona deyə bildi.



1

Danielin ilk etdiyi şey yuxunu dəqiq təsvir etmək oldu. “Sən yuxuda böyük bir heykəl görmüsən. Onun görünüşü qorxunc idi!”



2


Daniel dedi: “Bu heykəlin başı xalis qızıldan idi”.
3
“Sinəsi və qolları gümüşdən idi”.
4
“Qarnı və budları tuncdan idi”.
5
“Baldırları dəmirdən, ayaqlarının bir hissəsi dəmirdən, bir hissəsi isə gildən idi”.
6
Heykəli padşaha təsvir edəndən sonra Daniel ona yuxunun qalan hissəsini danışdı.
7
Daniel padşaha dedi: “Sən baxdığın zaman əl dəymədən bir daş yerindən qoparıldı”.
8


“Heykəlin dəmir və gil
ayaqlarından vurub onları
parça-parça etdi”.
9


“O zaman heykəl parçalandı və yay
xırmanlarındakı saman çöpü kimi
sovruldu”. Daniel ara verdi. “Daş
isə böyük bir dağ oldu və bütün
dünyanı tutdu”.
10


Padşah çox heyrətləndi. Bu, onun gördüyü yuxu idi!
Daniel bunu necə bilə bilərdi? Yalnız Allahın bunu
Danielə dediyinə görə. Sonra Daniel padşah
Navuxodonosora yuxunun yozmasını danışdı.
11


Daniel padşaha
dedi: “Göylərin
Allahı padşahlığı,
qüvvəti, qüdrəti
və izzəti sənə
verib”.
“Qızıldan olan
baş sənsən!”
12


Daniel padşaha onun qızıl
padşahlığının bitəcəyini
dedi. Heykəlin gümüş
hissəsi daha zəif
padşahlığın gələcəyi
deməkdir. Tunc
isə daha başqa
bir padşahlıq
deməkdir.
Dəmir və
və gil isə
dördüncü
padşahlıq
deməkdir.
PADŞAHLIQ 1
PADŞAHLIQ 2
PADŞAHLIQ 3
PADŞAHLIQ 4
13


Danielin padşaha dediyi son şey bu idi: “Göylərin Allahı
heç vaxt dağılmayan
bir padşahlıq
quracaq”.
14













Daniel və sirli yuxu

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Daniel 2

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

**Allah, Onun** günah adlandırdığı pis şeyləri etdiyimizi **bilir**. Günahın cəzası ölümdür.

**Allah bizi o qədər çox sevir** ki, O Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və bizim günahlarımıza görə cəzanı ödəmək üçün göndərdi. **İsa dirildi** və Göylərə getdi! İndi Allah bizim günahlarımızı bağışlaya bilər.

**Əgər sən öz günahlarından dönmək istəyirsənsə**, bunu Allaha de: Əziz Allah, mən inanıram ki, İsa mənim üçün öldü və indi yenidən yaşayır. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, indi mən yeni həyata malik ola və sonra Səninlə əbədiyyən yaşaya bilim. Sənin üçün və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin. Yəhya 3:16

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!**